# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair hesabat məruzəsi

(Əvvəli 3-cü səhifədə).

Əvvəlki illərdən fərqli olaraq yeni dərs ilindən başlayarq 15 sentyabr 2016-cı il tarixə kimi 5 yaşı tamam olan uşaqların 55 %-i məktəbə hazırlıq siniflərinə qəbul olunacaqlar. Bununla bağlı ilkin sənədlər hazırlanaraq təhsil nazirliyinə təqdim olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 17 aprel 2006-cı il tarixli sərəncamına uyğun olaraq məktəblərdə şagirdlərə dərin və fundamental bilik verilməsi, istedadlı uşaqlarla aparılan işin keyfiyyətinin yüksəldilməsi sahəsində xeyli iş görülmüş və şagirlərimiz müsabiqə və bilik yarışlarında fəallıq göstərmişlər.

Fənn olimpiadalarının aprel ayında keçirilən respublika turunda şagirdlərimizdən 4 nəfəri olimpiadanın müxtəlif dərəcəli medalları ilə təltif olunmuşdur.

Belə ki, Zarağan kənd 1 saylı tam orta məktəbin X sinif şagirdi Cəbrayılbəyli Nilufər Pərviz qızı Azərbaycan dili və ədəbiyyatı fənni üzrə qızıl medala, şəhər 2 saylı tam orta məktəbin XI sinif şagirdi Qurbanova Nigar Arif qızı tarix fənni üzrə qızıl medala və eyni zamanda tarix fənnindən ən yüksək bal topladığına görə "Birincilərin birincisi" mükafatına layiq görülmüşdür.

Həmçinin iəhər 3 saylı tam orta məktəbin IX sinif şagirdi Quliyeva Gülsüm Seymur qızı Azərbaycan dili və ədəbiyyatı fənni üzrə gümüş medalla, Zarağan kənd 1 saylı tam orta məktəbin XI sinif şagirdi Zəkəriyyəli Zəkəriyyə Pərviz oğlu riyaziyyat fənni üzrə bürünc medalla təltif olunmuşdur.

Təhsil nazirliyinin 10 mart 2016-cı il tarixli 137 nömrəli əmrinə əsasən "Ən yaxşı təqdimat" respublika müsabiqəsində Soltannuxa kənd tam orta məktəbin X sinif şagirdi Əsədova Fidan Elşən qızı qalib gələrək I yerə layiq görülmüş və nazirlik tərəfindən qiymətli hədiyyə ilə mükafatlandırılmışdır.

Hər il olduğu kimi Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Azərpoçt MMC-nin təhsil nazirliyi ilə birgə ümumtəhsil məktəbləri arasında "Özündən özünə yaşlı kimi məktub yazmaq" mövzusunda keçirilən respublika inşa yazı müsabiqəsində Böyük Pirəli kənd tam orta məktəbin VIII sinif şagirdi Mahmudova Səlimə Zülfüqar qızı III yerə layiq görülmüş, qiymətli hədiyyə və diplomla mükafatlandırılmışdır.

Qəbələ Rayon Mədəniyyət və Turizm Şöbəsinin tabeliyində olan struktur müəssisələrində cari ilin birinci yarısında bir cox mədəni-kütləvi bədii proqramlar hazırlanmış, tarixi hadisələr, yubileylər və əlamətdar günlərin qeyd olunması istiqamətində tədbirlər həyata keçirilmişdir.

Qəbələ Dövlət Rəsm Qalareyasının sərgi salonunda Azərbaycanın tanınmış rəssamlarının əsərlərindən ibarət sərgi, Heydər Əliyev adına Konqres Mərkəzində isə "Qəbələnin sosial iqtisadi inkişafı"na həsr olunmuş yerli rəssamların və tətbiqi sənət ustalarının əsərlərindən ibarət sərgi təşkil olunmuşdur.

Bakıda Dənizkənarı Milli Parkda keçirilən ümumrespublika Novruz şənliyində Qəbələ rayonunda istehsal edilən sənaye və kənd təsərrüfatı məhsullarını özündə əks etdirən sərgi təşkil olunmuş, eləcə də kulinariya məhsulları və xalq tətbiqi sənəti nümunələri nümayiş etdirilmişdir.

Azərbayacan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamına əsasən 2016-cı ilin "Multikulturalizm ili" elan olunması ilə əlaqədar Qəbələ Rayon Mədəniyyət Mərkəzində "Multikulturalizmin Azərbaycan modeli: dünyanın mükəmməl nümunəsi" mövzusunda keçirilmiş konfransın sonunda Qəbələdə yaşayan azsaylı xalqların nümayəndələrinin, rayon mədəniyyət mərkəzində fəaliyyət göstərən bədii kollektivlərin ifasında konsert proqramı, eləcə də Qəbələdə yaşayan azsaylı xalqların nümayəndələrinin əsərlərindən ibarət sərgi təşkil edilmişdir.

Qəbələ Rayon Mədəniyyət Mərkəzində Meksika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı Səfirliyinin təşəbbüsü ilə meksikalı rəssam Marqarita Moralesin fərdi yaradıcılıq sərgisi keçirilmişdir.

"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci il illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə tədbirlər planına uyğun olaraq ötən dövr ərzində bütün müəssisələrdə "Narkomaniyaya yox deyək", "Ağ ölüm" başlığı altında foto-stendlər, guşələr təşkil olunmuşdur. Qəbələ Dövlət Rəsm Qalereyasında narkomanlığın acı nəticələrini əks etdirən rəsm əsərləri nümayiş etdirilmişdir.

**Hörmətli toplantı iştirakçıları!**

Öz tarixi şöhrətinə qovuşmaqda olan Qəbələnin beynəlxalq mədəniyyət mərkəzinə, turizm diyarına çevrilməsi ilə əlaqədar rayonumuza gələn xarici ölkələrin dövlət rəsmilərinin və turistlərin sayı əhəmiyyətli dərəcədə artmış, beynəlxalq əlaqələrin qurulması istiqamətində əhəmiyyətli addımlar atılmışdır.

Carı ilin ötən dövrü ərzində Fransanın Kann şəhərinin meri Devid Lisnardın rayonumuza olan səfəri də belə tədbirlərdəndir. Səfər zamanı Azərbaycan Respublikasının Qəbələ rayonu və Fransanın Kann şəhəri arasında dostluq və əməkdaşlıq xartiyasının imzalanması nəzərdə tutulmuş, iki ölkə arasında qarşılıqlı əlaqələrin genişləndirilməsi imkanları araşdırılmışdır. Bununla yanaşı Özbəkistanın Səmərqənd vilayət hakiminin müavinlərinin və Özbəkistandakı Azərbaycan diaspor təşkilatının Səmərqənd vilayəti üzrə rəhbərliyinin, BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu çərçivəsində BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Nasir Əbdüləziz Əl-Nasir, TÜRKSOY-un baş katibi Düsen Kaseinov, Meksika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri tanışlıq məqsədi ilə Qəbələ rayonuna səfər etmişlər.

Hazırda Qəbələdə gün ərzində 2.500-dən çox turist qəbul etmək gücü olan 18 turizm istirahət obyekti fəaliyyət göstərir. Bu ilin ötən dövrü ərzində Qəbələyə 48675 nəfər turist gəlmişdir ki, onlara da yüksək standartlara uyğun turizm xidməti göstərilmişdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

Bu ilin ötən dövründə rayonun səhiyyə müəssisələrində də xeyli işlər görülmüşdür. Qəbələ Rayon Mərkəzi Xəstəxanasında 2016-cı ilin 6 ayı ərzində dərman və sarğı materialları alınmış, əhaliyə pulsuz dərman verilməsi təmin edilmişdir. Stasionar xəstələrin sayı 1.412 nəfər, cərrahi əməliyyatların sayı 47 olmuşdur. Bu müddət ərzində 615 doğuş, o cümlədən 2 ev doğuşu baş vermişdir. Perinatal ölümlərin sayı 3, körpə ölümü (0-1 yaş) 1 nəfər olmuş, neonatal ölüm olmamışdır.

Ambulator müraciət edən xəstələrin sayı isə 114.549 nəfər, şəkərli xəstələrin sayı 1.541, ilk dəfə aşkar olunanların sayı 124 nəfər təşkil etmişdir. Şəkərli xəstələr mütəmadi olaraq dərmanla təchiz edilirlər. Onkoloji xəstələrin sayı isə 558, ilk dəfə aşkar olunanlar 79 nəfər, ölənlər isə 36 nəfər olmuşdur.

Məcburi tibbi müayinəyə cəlb edilməsi nəzərdə tutulmuş 7544 nəfərdən 2214 nəfər obliqat qrup əhali müayinəyə cəlb edilmişdir. Onlardan 257 nəfəri təhsil, 216 nəfəri səhiyyə işçiləri, 343 nəfəri otel, 386 nəfəri Qəbələ konserv zavodu, 46 nəfəri isə digər sahələrdə çalışan işçilərdir. Obliqat qrupların məcburi tibbi müayinəsi il boyu davam edir.

Hər il olduğu kimi bu ildə ölkə Prezidentinin tapşırığı əsasında Respublikada 18 yaşından yuxarı olan əhalinin 15 fevral tarixindən 2 may tarixinədək kütləvi tibbi müayinəsi keçirilmişdir. Rayonda bu tədbirin mütəşəkkil keçirilməsi üçün rayon icra hakimiyyəti ilə birlikdə tərtib edilmiş qrafikə uyğun olaraq əhali mərkəzi xəstəxanada və müalicə diaqnostika mərkəzində müayinələrə cəlb olunmuşdur. Eyni zamanda bütün qəsəbə və kəndlərdə həkim briqadaları tərəfindən ilkin müayinələr aparılmaqla dərin tibbi müayinəyə ehtiyacı olanlar aşkar edilərək müayinələrə cəlb olunmuşdur. Bu müddət ərzində əhalinin 18 yaşdan yuxarı 67.346 nəfəri müayinə edilmişdir. Müayinələrin nəticəsinə əsasən 1.752 nəfərə ambulator, 212 nəfərə stasionar müalicə təyin edilmiş, 85 nəfər isə müalicə üçün Bakı şəhərindəki ixtisaslaşdırılmış klinikalara göndərilmişdir.

Rayon mərkəzi xəstəxanasının təcili yardım şöbəsində 16 sanitar nəqliyyatı işləyir və 6 ay ərzində çağrışların sayı 2.593 olmuşdur.

Ötən dövr ərzində heyvan dişləməsi ilə 259 nəfər müraciət etmiş, onlara təlimata uyğun yardım göstərilməklə antirabik vaksini, tetanus əleyhinə vaksin və gürzə əleyhinə zərdab alınmışdır. 6 ay ərzində 9 nəfər bruselyozlu, 1 nəfər Hepatit A, 4 nəfər hepatit B, 2 nəfər hepatit C ilə yoluxma halı qeydə alınmışdır.

Qəbələ Müalicə-Diaqnostika Mərkəzinin konsultativ poliklinika şöbəsinə xəstə gəlişlərinin sayı 12250, endoskopiya kabinetində müayinələrin sayı 953, EKQ müayinələrinin sayı 2467, stamatoloji kabinetdə müalicə olunan xəstələrin sayı 204 nəfər, stasionar şöbəyə daxil olan xəstələrin sayı 470 nəfər, aparılmış cərrahiyə əməliyyatlarının sayı 446, hemodializ şöbəsində 55 xəstədə 2390 hemodializ seansı aparılmış, şüa diaqnostika şöbəsində USM müayinələrinin sayı 9660, kompüter tomoqrafik müayinələrin sayı 774, rentgen müayinələrinin sayı 4678, fizioterapiya və tibbi bərpa şöbəsində prosedurların sayı 3735 və kliniki laboratoriyada 4724 xəstədə 160284 müayinə aparılmışdır.

Ölkəmizin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycanda həyata keçirilən "Talesemiyasız həyat naminə" proqram çərçivəsində mərkəzdə keçirilmiş qanvermə aksiyasında 200 nəfərdən çox könüllü iştirak etmişdir.

Qəbələ Rayon Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən ilin əvvəlindən yoluxucu xəstəliklərin qarşısının alınması, sanitar profilaktiki tədbirlərin həyata keçirilməsi məqsədi ilə ayrı-ayrı sahələr və yoluxucu xəstəliklər üzrə kompleks tədbirlər planı tərtib olunmuş və nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi daim diqqət mərkəzində saxlanılmışdır. 2016-cı ilin birinci yarısı ərzində profilaktik peyvəndlərdən hepatit «B»-yə qarşı 606, Göyösgörək, Difteriya və Tetanusa qarşı 747, Qızılça, Parotit, Məxmərəyə qarşı 1521, Polimelitə qarşı 3524, 6 yaşlı uşaqlar arasında Difteriya və Tetanus əleyhinə 767, Pnevmaniya əleyhinə 2110 peyvənd olunub. Doğumun 4-7-ci günündə 587 nəfərə BSJ peyvəndi edilmişdir.

Profilaktiki peyvəndlərin keyfiyyətli aparılması məqsədilə hər ayın 14-15-i rayonda vahid peyvəndləşmə günü keçirilir. Həmin günlərdə peyvənd materialları soyuq zəncir prinsipi əsasında müalicə-profilaktika müəssisələrinə çatdırılır.

Rayon üzrə yeni doğulan bütün uşaqlar vərəm əleyhinə BSJ peyvəndinə cəlb edilmişdir. 24 uşaqda əks göstəriş olduğuna görə doğum evində BSJ-yə cəlb edilməmişdir. Onların BSJ-yə cəlb edilməsi nəzarətdə saxlanılır.

Aparılmış profilaktik tədbirlərin nəticəsidir ki, son illər ərzində rayonda uşaqlar arasında Difteriya, Göy ösgürək, Tetanus, Qızılça, Parotit, Məxmərək kimi idarə oluna bilən yoluxucu xəstəliklər qeydə alınmamışdır.

Adamların sağlamlığının qorunması sahəsində idman mühüm əhəmiyyət kəsb edir. Qəbələ rayon Gənclər və İdman İdarəsi tərəfindən 2016-cı ilin I yarımilli ərzində 36 tədbir həyata keçirilmişdir. Bunlardan 20 tədbir gənclərlə iş sahəsini, 16 tədbir isə kütləvi bədən tərbiyəsi və idman sahəsini əhatə etmişdir.

Həyata keçirilən tədbirlərin mahiyyəti baxımından əhəmiyyəti dövlət siyasətinin düzgün təbliğinin təşkili, hüquq tərbiyəsi, cinayətkarlıq hallarına qarşı mübarizə, vətənpərvərlik tərbiyəsi işinin inkişaf etdirilməsi, gənclərin asudə vaxtlarının səmərəli təşkili, istedadlı gənclərin üzə çıxarılması, bədən tərbiyəsi və idman sahəsində isə yeniyetmə və gənc idmançıların aşkar olunması, idmanın kütləviliyinin təmin edilməsi, dərəcəli idmançıların hazırlanmasından ibarət olmuşdur.

(Ardı 5-ci səhifədə).